**“Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 348 (Cild I); 2024, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddə 630, № 11, maddə 1182; Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 101-VIIQD nömrəli və 27 dekabr tarixli 110-VIIQD nömrəli qanunları) 15-ci maddəsinin birinci hissəsinin iyirmi üçüncü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda iyirmi dördüncü abzas əlavə edilsin:

“əlilliyi olan şəxslərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi internet saytı vasitəsilə elektron ticarət qaydasında əl işlərinin satışından əldə edilən gəlirlər.”.

**Maddə 2.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddələr 630, 638, № 7, maddə 747, № 8, maddələr 932, 933, 934, № 10, maddə 1118, № 11, maddə 1182, № 12 (I kitab), maddə 1282; Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 98-VIIQD nömrəli və 27 dekabr tarixli 110-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 101.6-1-ci maddə əlavə edilsin:

“101.6-1. Əlilliyi olan şəxslərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi internet saytı vasitəsilə elektron ticarət qaydasında əl işlərinin satışından əldə edilən gəlirlərindən xərclər çıxılmadan 2 faiz dərəcə ilə vergi tutulur.”;

2.2. 150-ci maddə üzrə:

2.2.1. 150.1.14-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 150.1.14-1-ci maddə əlavə edilsin:

“150.1.14-1. Bu Məcəllənin 101.6-1-ci maddəsində nəzərdə tutulan satışlardan əldə edilən gəlirlərlə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);”;

2.2.2. 150.3.1-ci maddəyə “150.1.8-ci” sözlərindən sonra “, 150.1.14-1-ci” sözləri əlavə edilsin;

2.2.3. 150.3.3-cü maddəyə “150.1.8-ci” sözlərindən sonra “, 150.1.14-1-ci” sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 fevral 2025-ci il
№ 144-VIIQD